# Oktyabrda doğum günü olan şəhidlər


Əbdurəhmanov Elvin Əbülfəz oğlu
Qəbələ rayonu, Əmirvan kəndi
1996-2020


Səfərçinov Xeyirbəy Cəlil oğlu
Qəbələ rayonu, Yeni Dızaxlı kəndi
1993-2020


Ənvərli Aqşin Faiq oğlu
Baş Leytenant
Qəbələ şəhəri
1994-2020


Dəmirli Elşən Gündüz oğlu
Gizir
Qəbələ rayonu, Nic qəsəbəsi
1998-2020

Ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən vətən müharibəsi şəhidlərindən Əmirvan kənd sakini, gizir Elvin Əbülfəz oğlu Abdurahmanovun (1 oktyabr 1996-cı il), Dızaxlı kənd sakini əsgər Xeyirbəy Cəlil oğlu Səfərçinovun (5 oktyabr 1993-cü il), hərbi həkim, baş leytenant, Qəbələ şəhər sakini Aqşin Faiq oğlu Ənvərlinin (10 oktyabr 1994-cü il), MAXE kəşfiyyatçı Nic qəsəbə sakini Dəmirli Elşən Gündüz oğlunun (15 oktyabr 1998-ci il) doğum günləri rayon icra hakimiyyətinin, təhsil şöbəsinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidlərin təhsil aldığı məktəb kollektivi, ailə üzvləri və əzizləri tərəfindən anılaraq xatirələri yad edilmişdir. Şəhidlərin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə razılıqlarını ifadə edərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# 90 yaşlı "Qəbələ"



Bu ilin oktyabr ayında, bölgəmizdə qocaman və nüfuzlu mətbuat orqanlarından biri kimi tanınmış, minlərlə oxucunun qəlbində özünə isti yuva qurmuş, şərəfli və uzun inkişaf yolu keçmiş bizim doğma "Qəbələ" qəzetinin 90 yaşı tamam olur. Əsaslı araşdırmalardan belə qənaətə gəlmək olur ki, Azərbaycan milli mətbuatının nəsildən nəsilə keçən qiymətli ənənələrini davam etdirib, demokratik fikrin formalaşmasında mühüm rol oynayan "Qəbələ" qəzeti, fəaliyyət göstərdiyi onilliklər ərzində rayonumuzun hərtərəfli salnaməsini yarada bilmişdir. Bu şübhəsizdir. Özü də yalnız məşəqqətli müharibələrlə, keşməkeşli, eləcə də sevindirici hadisələrlə zəngin XX əsrin salnaməsini yox, o cümlədən minillərin tarixi hadisələrini xronoloji qaydada öz səhifələrində canlandırmışdır. Bunu bilmək, duymaq üçün "Qəbələ"nin səliqəylə tikilib, qalaq-qalaq toplanmış və müxtəlif illərə aid nömrələrini səbrlə, təmkinlə vərəqləyib tanış olmaq bəs edər. Aşağıda qəzetimizin tarixinə bir baxış edib dediklərimi isbat etməyə çalışacağam. Amma ilk növbədə qəzetimizin adına dair qısa açıqlama vermək yerinə düşər. Belə ki 1933-cü ildə "Bolşevik mübarizi" adı ilə nəşrə başlayan indiki "Qəbələ" qəzetinin adı bir neçə dəfə dəyişdirilib. 1953-1962-ci illərdə "Mübariz", 1963-1965-ci illərdə rayonların birləşməsi ilə əlaqədar Göyçayda (Ağdaşda çıxan "Əmək" qəzeti də daxil olmaqla üç rayonun bir qəzeti olub) "Yeni həyat" adlarını daşıyıb. 1966-cı ildə rayonda qəzet nəşri yenidən bərpa olunaraq "Qalibiyyət" adı ilə oxucularla görüşünü davam etdirib və 1990-cı ilin son aylarından bu günki adla fəaliyyətdədir.

İlk növbədə xüsusi qeyd etmək istəyirəm ki, "Qəbələ" qəzetində, adəti üzrə, Azərbaycan prezidenti möhtərəm İlham Əliyevin çıxışları, sərəncamları və Qəbələ rayon İcra Hakimiyyəti Başçısı cənab Səbuhi Abdullayevin çıxışları və rayonumuza aid qərarlar operativ şəkildə dərc olunur.

Keşməkeşli XX əsrin tarixini yazan qəzetimiz neçə-neçə sevinc və kədərlə, faciələrlə dolu yol keçmiş - 30-cu illərin Ümumittifaq savadlanma, kolxozlaşma, kollektivləşmə, sənayeləşmə islahatları, repressiyalar kampaniyası, 40-cı illərin başlanğıcında faşistlərin qəfil hücumu ilə başlayan qanlı-qadalı 1941 - 1945-ci illər müharibəsi, qələbədən sonrakı dirçəliş - bərpa-quruculuq illəri, Stalinin ölümündən sonra Xruşşovun apardığı düşünülmüş və düşünülməmiş islahatlar, Brejnyevin inkişaf etmiş sosializm, sürətləndirmə, sonralar isə Qorbaçovun "durğunluq" adlandırdığı zaman kəsiyi, Azərbaycanımıza süni olaraq, Qorbaçovun aşkarlıq və yenidənqurma siyasəti pərdəsi altında yaratdığı məşəqqətli hadisələr və xalqımıza miras qoyduğu Qarabağ problemi, nəhayət Ana Vətənimizin müstəqilliyini yenidən bərpa etməsi, xalqın tələb və təkidi ilə ümummilli lider Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıtması, obyektiv və subyektiv səbəblərdən Qarabağ faciəsinin dərinləşməsi, gərginləşməsi, elimiz-obamız üçün böyük faciəyə çevrilməsi, nəticə etibarilə torpaqlarımızın 20 faizinin düşmən tərəfindən zəbt edilməsi və nəhayət, müdrik Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Prezidenti və Ali Baş Komandan İlham Əliyevin prinsipiallığı, inadkarlığı, məqsədyönlü siyasəti, möhkəm iradəsi sayəsində iqtisadiyyatımızın yüksəlməsi, müasir tipli Milli Ordumuzun qurulması və Ermənistanın növbəti təxribatı nəticəsində 27 sentyabr 2020-ci ildə başlayan 44 günlük İkinci Qarabağ - Vətən müharibəsində milli Silahlı Qüvvələrimizin Zəfər qazanması - şəhidlərimizin canı, qazilərimizin qanı bahasına torpaqlarımızın mənfur düşmən tapdağından azad edilməsi... Bax bu və digər tarixi, xalqımızın taleyi, müqəddəratı ilə bağlı olan hadisələrin hər biri haqqında "Qəbələ"nin səhifələrində müfəssəl məlumatlara, açıqlamalara, çıxışlara, məqalələrə, elmi-publisistik yazılara rast gəlmək mümkündür. Hələ bu, demək istədiyim vacib, mühüm məsələlərin hamısı deyil. Ciddi məsələlərdən biri də odur ki, qəzet təkcə bu irimiqyaslı problemləri işıqlandırmaqla kifayətlənməmiş, Vətənimizə, Qəbələmizə aid olan bütün mövzuları, geniş sahələri işıqlandırmışdır. Aydındır ki, belə bir məqalədə qəzetin 90 ildə gördüyü işləri əhatə etmək mümkün deyil, amma yığcam formada oxucularımıza düşüncələrimin az hissəsini çatdırmaq fikrindəyəm.

Mədəniyyətimizi yaşadan və geniş təbliğ edən "Qəbələ" qəzeti fəaliyyət göstərdiyi bütün dövrlərdə mədəniyyətimizi, ədəbiyyatımızı, yaşadan və geniş təbliğ edən nəşr kimi tanınmışdır. Məsələn, 1945-ci ilin fevral nömrələrində F.Qasımzadənin böyük həmyerlimiz İsmayıl bəy Qutqaşınlının həyat və yaradıcılığına həsr olunmuş silsilə yazıları verilmişdir. Sevindirici haldır ki, sonrakı illərdə ədibin

**(Ardı 8-ci səhifədə).**

# Əsgər arzuları real olmalı

- Bilirsənmi əzizim, gəl əl-ələ tutaq, çıxaq bu dünyanın məhvərindən. Gedək başqa bir yerdə özümüzə dinc yuva quraq. Mən bezdim bu top səsindən, tank səsindən, silah səsindən. Gəl gedək başqa bir diyarda səninlə xoşbəxt, sakit həyat quraq.

- Mənim əzizim, hara gedək. Mən öz elimdən, obamdan, atamdan, anamdan, əzizlərimdən, səndən necə ayrılım. Mənim arzularım çoxdur. Bu arzulara Allahın köməyilə səninlə birlikdə çatacağıq. Sən narahat olma, hər şey yaxşı olacaq. İnşallah biz Şuşada, Cıdır düzündə özümüzə gözəl toy edəcəyik.

Bu sözlər cəbhədə vuruşan sevgilisini görməyə gələn gənc qızın ürəyindən keçən arzular idi. O, bu sözləri səngərdə sakitcə sevgilisinə söyləyir.

Son illərdə belə şirin arzular neçə-neçə gəncin ürəyindən keçirdi. Amma nə fayda, bu arzulara çatmaq Azərbaycan gəncindən böyük mərdlik, igidlik, səbr, düşmənə nifrət tələb edirdi. Çünki həmişə özümüzə dost, qardaş bildiyimiz mənfur qonşular torpaqlarımızı işğal edib, yurd-yuvamızı viranəyə döndərmişdilər.

Azərbaycan xalqı sülhsevər, vətənpərvər, xeyirxah bir xalqdır. Ona görə də son otuz ildə başımıza belə müsibətlər gəlib. Dözümlü, mərd xalqımız bu çətinliklərdən çox böyük uğurla qalib gəldi və Azərbaycan xalqının tarixinə şanlı səhifələr yazdı.

Sentyabr ayının 27-də başlanan ikinci Qarabağ savaşı Azərbaycan xalqının tarixinə qızıl səhifələr yazdı. Bunu bu gün səngərdə igidlik göstərən, düşmənə layiqli cavab verən azərbaycanlı igidlər, Polad ürəkli, cəsarətli, Mübariz qeyrətli ər oğullar layiqincə təsdiq etdilər. Bizə tarixdən məlumdur ki, Azərbaycan torpaqları həmişə mənfur düşmənlərin göz dağı olub. Yerüstü, yeraltı sərvətlərimiz, insanların mehribanlığı, gözəlliyi, əməksevərliyi, vətənpərvər olması və s. bu kimi xoş xüsusiyyətlər tarixlər boyu həmişə ürəyi xəbis, iyrənc, insanlıqdan məhrum, faşizm ideologiyası ilə yaşayan, özünün torpağı, yurd-yuvası, əsli-nəsli, vətəni olmayan, həmişə özgə torpaqları işğal edib, dünyaya meydan oxumaq istəyən haylar Azərbaycan torpaqlarında məskən sala bilməzlər. 44 günlük II Vətən müharibəsində Azərbaycanın igidləri, poladları, mübarizləri, elçinləri və başqaları layiqincə cavab verirlər. Var olsun Azərbaycan əsgəri!

Şəhidlərimizin ruhu şad olsun. Onların hər birinin qanını cəbhədə vuruşan igidlərimiz layiqincə aldılar. Azərbaycan xanımları hər bir şəhidin əvəzinə dünyaya yeni igid oğullar gətirir. Biz cəbhədə vuruşan hər bir əsgərimizlə fəxr edirik. Həyat yenə öz axarınca davam edir, sözümün əvvəlində dediyim o iki gəncin arzuları həyata keçir.

Var olsun Azərbaycan əsgəri, var olsun Azərbaycan xalqı. Azərbaycan xalqının əzmini, iradəsini heç kim qıra bilməz. Çünki

Qarabağ bizimdir!

Qarabağ Azərbaycandır!

**Alimə SƏMƏDOVA,**
**Zarağan kəndi.**

# Sənaye

Qəbələ rayonunun sənayesi əsasən mədənçıxarma sənayesi, emal sənayesi, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələrini əhatə edir.

2023-cü ilin yanvar-sentyabr aylarında sənaye müəssisələri, habelə fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən faktiki qiymətlərlə 95003,9 min manatlıq, əvvəlki ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 8589,6 min manat çox sənaye məhsulu istehsal edilmişdir.

Hesabat dövründə sənaye məhsullarının 10,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 85,8 faizi emal, 1,0 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 3,2 faizi isə mədənçıxarma sektorlarında istehsal edilmişdir.

İstehsal olunmuş sənaye məhsulunun 10478,2 min manatı və ya 11,0 faizi dövlət, 84525,7 min manatı və ya 89,0 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

Hesabat dövründə 341,11 min ton çınqıl, qırmadaş, xırda çay daşı və çaxmaq daşı, 1551,08 ton emal edilmiş və konservləşdirilmiş kartof, 1375,33 min dkl meyvə şirələri, 1809,22 ton meyvə-tərəvəz konservləri, 111,58 ton qaymaq, xama, 448,2 ton kərə yağı, 916,5 ton pendir və kəsmik, 13392,2 ton buğda unu, 23348,17 ton çörək, 723,55 ton unlu qənnadı məmulatları, 398,1 min dkl alkoqolsuz içkilər, 0,83 min dkl araq, 74,19 min dkl şirinləşdirilməmiş sular, 0,9 min dkl spirt, 41,87 min dkl üzüm şərabı, 67,02 ton emal edilmiş mərmər istehsal olunmuşdur.